**Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında**
**İctimai Şuranın Reqlamenti**

## 1. Ümumi müddəalar

1.1. Bu Reqlament "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) yanında İctimai Şuranın (bundan sonra – Şura) iş qaydasını müəyyən edir.

1.2. Şura "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli, 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq yaradılmışdır.

1.3. Şura Nazirliyin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, Nazirliklə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, Nazirliyin fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, təhsil sahəsində dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması, vətəndaşların təhsil hüquqlarının müdafiəsi məqsədi ilə Nazirliyin yanında ictimai əsaslarla (ödənişsiz) fəaliyyət göstərən məşvərətçi qurumdur.

## 2. Şuranın strukturu

2.1. Şura sədr, sədr müavini, katib və digər 8 (səkkiz) üzvdən ibarətdir.

2.2. Şura üzvlərinin səlahiyyət müddəti 2 (iki) ildir.

2.3. Şuranın sədri, sədr müavini və katibi Şuranın iclasında Şuranın üzvləri arasından iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə iki il müddətinə seçilirlər.

2.4. Şuranın sədri:

2.4.1. Şuranın fəaliyyətinə rəhbərlik edir;

2.4.2. dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları ilə münasibətlərdə Şuranı təmsil edir;

2.4.3. Şuranın fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirir;

2.4.4. Şuranın iclaslarına sədrlik edir.

2.5. Şuranın məsul katibi:

2.5.1. Şuranın cari fəaliyyətini təmin və təşkil edir;

2.5.2. Şura üzvlərinin fəaliyyətini əlaqələndirir;

2.5.3. Şuranın aktlarını aidiyyəti üzrə təqdim edir;

2.5.4. Şuranın kargüzarlıq işini təşkil edir.

2.6. Şura öz fəaliyyətinin təşkili üçün daimi və müvəqqəti orqanlarını (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yarada bilər. Şuranın daimi və müvəqqəti orqanları Şuranın iclasında Şuranın üzvlərindən ibarət olmaqla formalaşır. Nazirliyin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, ekspertlər, elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələri, ayrı-ayrı mütəxəssislər Şuranın daimi və müvəqqəti orqanlarının fəaliyyətinə ödənişsiz əsaslarla cəlb edilə bilərlər.

## 3. Şuranın iclasları

3.1. Şura iclaslarını rübdə 1 (bir) dəfədən az olmayaraq keçirir.

3.2. Şuranın növbədənkənar iclasları Şura üzvlərinin yarıdan çoxunun və ya Şura sədrinin təşəbbüsü ilə keçirilə bilər.

3.3. Şuranın iclaslarının vaxtını, yerini və gündəliyinin layihəsini Şuranın sədri müəyyən edir.

3.4. Şuranın iclasının vaxtı, yeri və gündəliyinin layihəsi barədə məlumat iclasa azı 5 (beş) gün qalmış Şuranın üzvlərinə təqdim edilir.

3.5. Şuranın iclasları üzvlərinin yarıdan çoxu (50% +1) iştirak etdikdə səlahiyyətli sayılır.

3.6. Şuranın iclaslarını Şuranın sədri aparır.

3.7. Şuranın sədri iclasda olmadıqda, iclasa Şura sədrinin müavini sədrlik edir.

3.8. Şuranın katibi iclasda iştirak etmədikdə, Şuranın qərarı ilə onun vəzifəsini Şura üzvlərindən biri həyata keçirir.

3.9. Şura təşkilati məsələlər üzrə qərarlar, digər məsələlər üzrə isə rəy və təkliflər qəbul edir.

3.10. Şuranın qərarları, rəy və təklifləri açıq səsvermə yolu ilə, iclasda iştirak edən Şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə, Şura sədrinin səsi həlledici sayılır.

3.11. Şuranın iclasları müvafiq qaydada protokollaşdırılır.

3.12. Şura iclasının protokolu 2 (iki) nüsxədə tərtib edilir, Şuranın sədri və katibi tərəfindən imzalanır.

## 4. Şura üzvlüyünə xitam verilməsinin əsasları və qaydası

4.1. Şura üzvünün səlahiyyətlərinə aşağıdakı hallarda xitam verilir:

4.1.1. Şuranın həmin tərkibinin səlahiyyət müddəti başa çatdıqda;

4.1.2. Şura üzvü Şuradan çıxmaq barədə ərizə ilə Şuranın sədrinə müraciət etdikdə;

4.1.3. Şura üzvü ardıcıl olaraq 3 (üç) dəfə və ya il ərzində 6 (altı) dəfə üzrsüz səbəbdən Şuranın iclaslarında iştirak etmədikdə;

4.1.4. Şura üzvü barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə, habelə məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda;

4.1.5. Şura üzvü mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarında, yaxud yerli özünüidarəetmə orqanlarında işə qəbul edildikdə;

4.1.6. Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verdikdə;

4.1.7. bu Reqlamentlə müəyyən edilmiş qaydaların pozulmasında təqsirli olduqda.

4.2. Bu Reqlamentin 4.1.1-ci, 4.1.2-ci və 4.1.5-ci bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, Şura üzvünün səlahiyyətlərinə Şuranın qərarı ilə xitam verilir.

## 5. Yekun müddəalar

5.1. Bu Reqlamentdə əlavə və dəyişikliklər edilməsi təşəbbüsü ilə Şuranın hər bir üzvü çıxış edə bilər.

5.2. Bu Reqlamentdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmayan dəyişikliklərin edilməsi yolverilməzdir.

5.3. Bu Reqlament Şuranın iclasında təsdiq edildiyi gündən qüvvəyə minir.